Xəyalə Əyriçalmalı
AMEA, Tarix institutu

# ƏSRLƏRDƏ GİZLƏNƏN TARİXİMİZ ƏMİR HƏMZƏ HACI ABİD BƏY ƏSLİNDƏ KİM OLMUŞDUR?

***Açar sözlər**: Əmir Həmzə Hacı Abid bəy, Əyriçalmalı nəsli, Maştağa kəndi, Məmməd Məmmədyarov, "Əmir" titulu, knyaz P.D.Sisianov, Bakı, Qoşa Qala qapısı, Sisianovun qətli*
***Key words**: Amir Hamza Haji Abid bek, the Ayrichalmali kind, Mashtagi village, Mammad Mammadyarov, the title "amir", prince P.Tsitsianov, Baku, the Qosha Qala Gates, Tsitsianov`s murder*
***Ключевые слова**: Амир Гамза Гаджи Абид бек, род Айричалмалы, село Маштаги, Мамед Мамедъяров, титул эмира, князь П.Д.Цицианов, Баку, Парные ворота, убийство Цицианова*

Mən Xəyalə Əyriçalmalı, Hacı Əliağa qızı, Əmir Məhəmmədin (Məmmədağa) nəvəsi, Əliağa nəticəsi, Əmir Məhəmməd nəbirəsi, Əmir Əhməd nədidəsi, Əmir Məhəmməd nəbibəsi və ən əsası Kəlbi-Əli övladıyam.

Yeddi arxa babalarımın adını sadaladığım zaman, Kəlbi-Əli övladını sonda qeyd etdim. Bəli. Kəlbi-Əli mənim ulu cəddim, yeddinci arxamdır. Onun həyatı haqqında çox məlumata malik deyiləm. Lakin, dəqiq bilirəm ki, o, adam öldürdüyü üçün Maştağa kəndində adını dəyişdirərək, Kəlbi-Əli adı ilə yaşayıb. Kəlbi-Əli adı ərəb dilində "Əlinin iti" mənasını verir. Daha sonra Maştağada ondan törənənlər "Kəlbi-Əli övladları" çağırılardı.

Kəlbi-Əlinin Əmir Məhəmməd adında bir oğlu olub və oğlunun Məşədi Əmir Aslan, Kərbəlayi Əmir Həmzə, Əmir Əhməd və Əmir Əli adında dörd oğlu olub. Bu fakta 1832-ci ildə Çar hökumətinin "Azərbaycan əhalisinin siyahıya alınması" barədə kameral təsviri kitabında rast gəldim.4. Ulu cəddim Kəlbi-Əlinin həyatına bir qədər sonra qayıdacağam.

Yuxarıda qeyd etdiyim kimi, nədidəsi olduğum Əmir Əhməd babamın soyundan gələn Əyriçalmalı nəslin nümayəndəsiyəm. Şübhəsiz ki, bu ad hər kəsə qəribə görünə bilər: "Əyriçalmalı". Bu ləqəb nə ilə bağlıdır? Tariximizdə buna rast gəlmişikmi? Əlbəttə ki, bu suallar hər kəsi düşündürə bilər. Ancaq, qeyd etmək istərdim ki, bu günki tariximizdə bu ləqəb o qədər də tanınmır. Araşdırdığım tarixi sənədlər öz təsdiqini tapdıqdan sonra, həmin ləqəb Azərbaycan tarixində müəyyən maraq doğuracaqdır. Əyriçalmalı ləqəbini açıqlamazdan əvvəl bir məqama toxunmaq istəyirəm.

Əmir Əhməd vaxtilə Maştağa kəndində böyük torpaq sahələrinə sahib olan bir şəxs olmuşdur. Bu ərazi Maştağa kəndinin Xonxar məhəlləsindəki bir qisim ərazilərdən başlayaraq, indiki Hava limanı ərazisinə kimi uzanırdı.

Əmir Əhməd 1819-ci ildə anadan olub. Bu fakt yuxarıda adını yazdığım kameral təsvir kitabında qeyd olunub. Əmir Əhmədin Ətir xanım adlı qadından dörd qız övladı və atasının adını daşıyan Əmir Məhəmməd adında oğlu doğulmuşdur.

Nəslimizin "Əyriçalmalı" adlandırılması 1863-cü ilə təsadüf edir. Çünki, o zaman Əmir Məhəmmədin 15 yaşı var idi. Bu faktlar 1863-cu il Çar hökümətinin "Azərbaycan əhalisinin siyahıya alınması" adlı kameral təsvir kitabında öz əksini tapmışdır.2. "Əyriçalmalı" ləqəbi Əmir Əhmədin xaincəsinə qətlindən sonra ailəmizə verilmişdir. O zaman Əmir Məhəmməd kiçik yaşlarında idi. Məsələ belə olmuşdur: Böyük torpaq sahələrinə sahib olan Əmir Əhməd Maştağada varlı bir ağanın hədələri ilə qarşılaşır. Onun torpaq sahələrinə sahib çıxmaq istəyən həmin şəxs Əmir Əhmədi öz torpağında xaincəsinə qətlə yetirir. Bu xəbəri eşidən Ətir xanım, çox düşünmədən ərinin əbasını geyinərək, kəlağayısını çalma şəklində başına bağlamış, özünü kişi qiyafəsinə salmış və qadın olduğu bilinməsin deyə, çalmanı qaşı üstünə əyri qoymuşdur.

Əmir Əhməd soyunun kəsilməsindən ötrü, övladları qorunsun deyə, Ətir ana oğlu Əmir Məhəmmədin həddi-buluğa çatacağı günü gözləyir. Görünüşcə kişiyə bənzədiyi üçün adına söz deyilməsin deyə, o, at belində evinin ətrafını uzaqdan seyr edirdi. Əmir Məhəmmədin həddi-buluğa çatdığı gün Ətir ana əlindəki silahını oğlunun qarşısına qoyaraq, ona atasının ölüm hadisəsindən danışır və ona atasının qisasını almağı təlqin edir.

Əmir Məhəmməd "qana-qan, dişə-diş" prinsipin üzrə, atasının qisasını almaq üçün heç bir şey olmamış kimi ağanın yanına gedib, torpaq sahəsi almaq üçün ona müraciət edir. Ağa artıq baş vermiş qətl hadisəsini unutduğundan onu Əmir Əhmədin zəbt olunmuş torpaq sahələrinə aparır. Təklikdən istifadə edən Əmir Məhəmməd bu torpaq sahəsinin onun atasının olduğunu, zəbt etmək üçün atasını qətlə yetirdiyini ağanın yadına salır və elə həmin sahədə ağanı qətlə yetirir.

Əmir Məhəmmədin altı oğlu, dörd qızı olub. Xeyrənsə xanımdan oğulları Əhmədağa, Məşədi Firuz, Əliağa, qızları Ətir, Aypara və Teybə, Milayim xanımdan isə oğulları Bəhram, Mahmud, Rüstəm və qızı Çimnaz dünyaya gəlmişdir. Əmir Məhəmmədin böyük oğlu Əhmədağa və onun dörd qardaşı kənddə nüfuzlu və tanınan şəxslər olmuşlar. Əgər kənddə qolu güclü, sözü keçən, nüfuzlu 10 nəfər var idisə, onlardan 5-i Əmir Məhəmmədin övladları idilər.

Sovetlər hakimiyyətə gəldikdən sonra, 1920-ci ildə Maştağa qəzasında, Əhmədağa Əyriçalmalı Kənd Qəza İcra Hakimiyyətinə sədr, Məmməd Məmmədyarov müavin təyin olundu, qardaşları isə digər vəzifələrə layiq görüldülər. Bir müddət sonra XI Qızıl Ordunun komandanı S.M.Kirov tərəfindən Bakıda silahların yığılması əmri verildi. Əhmədağa göstərişə əməl etmədi, qardaşlarını başına toplayıb, "Biz bu şərəfsizliyi edə bilmərik. Biz həmin silahlarla kəndin qeyrətini, namusunu qorumuşuq. Bunu etmək bizə yaraşmaz!" dedi. Əhmədağanın bu sözləri qardaşları üçün qanun idi.

Şübhə yox idi ki, Məşədi Firuz da, Əliağa da, Bəhram da, Mahmud da bu fikirdə idilər. Amma onların varlığı kəndin bəzi zəngin insanlarını narahat edirdi.

Əyriçalmalı qardaşları silahların yığılmasına qarşı çıxdıqları üçün yerli satqınlar tərəfindən onlar haqqında Moskvaya şikayət yazıldı və mərkəzdən tezliklə cavab gəldi. Maştağa Qəza İcra Hakimiyyətinin sədri Əhmədağa və onun vəzifədə olan qardaşları həbs olundular. Lakin, hakimiyyət qüvvələri Əhmədağanı və onun dörd qardaşının tutulmasının elə də asan olmayacağını bilirdi. Ona görə də Əyriçalmalı qardaşlarını həbs etmək üçün münasib bir vaxt gözlədilər.

Hamı yaxşı bilirdi ki, Əyriçalmalı qardaşlarını, təklikdə tutmaq daha uyğun olacaq. Ona görə də onları ayrı-ayrı məkanlarda həbs etdilər. Sovetin qərarı ilə əmrə tabe olmayan Əyriçalmalı qardaşlar güllələnməli idilər. Lakin, Məmməd Məmmədyarovun V.İ.Lenindən aldığı əfv fərmanında bildirildi ki, Əhmədağa, Məşədi Firuz və Əliağa güllələnmədən azad olunsunlar, digər iki qardaş Bəhram və Mahmud isə güllələnsinlər.

Əmir Məhəmməd daim oğullarının taleyi haqqında düşünürdüsə də, şərəfli, qürurlu, düşmənlərinə qarşı amansız olan bu adam bunu biruzə vermirdi. Bir gün Əmir Məhəmməd evinin həyətində əyləşmişdi. Məlumata görə düşmənlərindən biri Əmir Məhəmmədin evinin hasarına yaxınlaşıb ələ salaraq, gülə-gülə deyir: "Necədir Əmir Məhəmməd? Yandırır?" Əmir Məhəmməd özünü itirmədən gülə-gülə cavab verir: "Mənim ailəm (əhli-əyalını nəzərdə tutur – Xəyalə Əyriçalmalı) evdədi. Sən narahat olma!"

Bir neçə gün keçdi. V.İ.Lenindən alınan əfv fərmanının surəti Əmir Məhəmmədə çatdı. Əhmədağa, Məşədi Firuz, Əliağa evə qayıtdılar. Əhmədağa Bəhramla Mahmudun güllələnəcəklərini atasına dedi. Bunu eşidən Əmir Məhəmməd tez bir zamananda həbsxanaya gedib oğullarını qaçırmaq qərarına gəldi.

O, vaxt itirmədən iki oğlunu həbsxanadan qaçırmaq üçün silahlandı, bütün qohum-əqrabasını da başına topladı. Əhmədağa silahlanmış dəstəsini yığdı. Bütün kişilər əbalarının altında tüfəng gizlətmişdilər.

Düşmənlər yenə də öz pisliklərindən əl çəkmədilər. Bundan xəbər tutan Əyriçalma nəslinin bədxahları həbsxanaya xəbər göndərib, Əmir Məhəmmədin silahlanmış dəstə ilə gələcəyini xəbər verdilər. Həbsxana rəhbəri bu xəbəri eşitdikdə Bəhram və Mahmudu gecə vaxtı güllələdi.

Əmir Məhəmməd həbsxanaya çatdığı zaman onun gələcəyindən xəbəri olan və orada çalışan bir şəxs gizlincə yaxınlaşıb dedi: "Sizin bura gələcəyinizi kimsə öncədən xəbər verdi, buna görə də Bəhram və Mahmud bir gün öncə güllələndilər". Əmir Məhəmmədin hörmətini saxlayan və hünərinə yaxşı bələd olan şəxs qətl yerini ona bildirdi: "Sənin oğullarının cənazəsini başayaq qoyub ayaqlarını qırmızı parça ilə bağlamışam. Sənə və sənin oğullarına hörmətim sonsuzdur. Mənə etdiyin yaxşılıqları unuda bilmərəm. Köməkliyimi belə edə bilərəm. Get oğullarına sahib ol!"

Verilən əmrə görə qardaşların güllələnməsi baş nayihəsindən olduğu üçün cəsədlərin sifətləri tanınmaz hala düşmüşdü. Əmir Məhəmmədin düşmənləri cəsədlərin ayaqlarına bağlanan qırmızı parçanı da açmışdılar. Əmir Məhəmməd və dəstəsi nə qədər axtardısa, cəsədləri müəyyənləşdirə bilmədi. Bundan hiddətlənən Əmir Məhəmməd özünü sındırmadan dəstəsi ilə birgə evə yollandı.

O gündən sonra Əliağa babam ərizə yazaraq, NKVD (Daxili İşlər Xalq Komissarlığı) vəzifəsindən imtina etdi. 1926-cı il fevralın 4-də Əliağa babamın ilk oğlu, mənim ata-babam dünyaya gəldi. Əliağa Əyiçalmalı Əmir Məhəmməd atasının adını oğluna verdi. Daha sonra babam 1956-cı ildə atama atası Əyriçalmalı Əliağanın adını verdi.

Bəli, mən özümü dərk edəndən sonra kim məni görürdüsə, Əyriçalmalı adı ilə şərəfləndirirdi. Ələlxüsus da məni babam Əmir Məhəmmədə (Məmmədağa) bənzətmələrinə görə çox qürurlanırdım.

Vaxt keçdikcə, "Əmir" titulu da məni özünə cəlb edirdi. Tez-tez babalarımın adında niyə məhz "Əmir" titulunun olduğunu düşünürdüm. Mən illər sonra nəslimizə məxsus "Əmir" titulunun izinə düşdüm. Bəzən də düşünürdüm ki, bizim nəslimiz Bakı xanı olan I Mirzə Məhəmmədin bir oğlunun nəslidir və atamız Əyriçalmalı Əmir Məhəmmədin adı da Bakı xanı I Mirzə Məhəmmədin şərəfinə qoyulub.

Çar hökümətinin 1832-ci il "Azərbaycan əhalisinin siyahıya alması"4. arxiv materialında nəsil şəcərəmizi tapdıqdan sonra hörmətli tarixçilərimizə müraciət etdim. Tarixçilərimizdən ilk öncə tarix üzrə fəlsəfə doktoru Kərəm Məmmədova, daha sonra tarix elmləri doktoru, professor Şahin Fazilə ailə şəcərəmizi təqdim etdim. Tarixçi Kərəm müəllim "Əmir" adının titul anlamı kəsb etdiyini vurğuladı. Şahin müəllim isə mənə babalarımın adlarındakı "Əmir" adının titul, həmçinin, yüksək məqam sahibi (Teymurilər dövlətində padşah) olduğunu bildirdi. Daha sonra hörmətli Şahin müəllim məni tarix üzrə fəlsəfə doktoru Mərziyə İsgəndərova ilə tanış edərək, onun mənə bu haqda daha doğru istiqamət göstərəcəyini bildirdi.

Mərziyə xanım nəsil şəcərəmizə nəzər yetirdikdə, Ulu cəddim Kəlbi-Əlinin nəvəsi olan Kərbəlayi Əmir Həmzənin adına diqqət yetirdi. O, qeyd etdi ki, Tiflisdə dövlət arxivində çalışarkən 1806-ci ildə Çar hökumətinin generalı, knyaz P.D.Sisianovun qətlində təqsirləndirilən şəxsin də adının Əmir Həmzə olduğunu vurğuladı.9. Mərziyə xanım "Bakı xanlığı və onun Rusiya tərəfindən işğalı" adlı monoqrafiyasında bu və digər versiyalar haqqında məlumatlar verir. Mən Mərziyə xanımın məlumatları əsasında, Azərbaycan Milli Elimlər Akademiyasının Azərbaycan Tarixi Muzeyi Elmi kitabxanasında "Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları"nda yığılmış sənədlərə müraciət etdim.

Direktor akademik Nailə Vəlixanlının yaratdığı şərait nəticəsində mən muzeyin elmi kitabxanasında çalışmağa başladım və 1806-cı il 8 fevral tarixində Bakı xanlığı tərəfindən qətlə yetirilən general P. D. Sisianovun qətli ilə əlaqədar sənədə rast gəldim. "Tiflis 1869-cu il Qafqaz Arxeoqrafiya Komisiyasının Aktları"nın III cildindəki 1. materiala əsasən - "13 noyabr 1806-cı il Beşbarmaq ərazisindən rus generalı Bulqakovadan qraf Qudoviçə hesabat!" adlanan sənədi ilə tanış oldum.

" - Bakılı Qasım bəydən aldığım məlumata görə general, knyaz P. D. Sisianovun və podpolkovnik Eristovun qətlində təqsirləndirilən Bakılı Əmir Həmzə Hacı Abid bəy və onunla birgə qətildə iştirak edən daha 2 nəfər Bakıətrafı ərazilərdə gizlənmişlər. Mən Qasım bəyə Əmir Həmzə Hacı Abid bəyi şəhərə hər hansı bir yolla çağırılıb, onunla birgə qətldə iştirak edən 2 nəfərin yeri öyrənilərək tutulmağına göstəriş verdim."

Əldə etdiyim sənədə əsasən Əmir Həmzə Hacı Abid bəy 8 fevral 1806-cı ildə knyaz P. D. Sisianovu öldürdükdən sonra Bakı ətrafı ərazilərdə gizlənib. Mən bu sənədə istinadən qeyd etdim ki, Maştağa kəndində Əmir Həmzə adı 1832 – ci ilə qədər bir nəfərdə də olmuşdur. O şəxs ulu cəddim Kəlbi-Əlinin oğlu Əmir Məhəmmədin ikinci oğlu idi. Həmin Əmir Həmzə 1809-cu ildə doğulmuşdur. Bu faktı 1832 – ci ilin Çar hökümətinin "Azərbaycan əhalisinin siyahıya alınması" adlı kameral təsvir kitabında aydınlaşdırmışam.

Qeyd etdiyim kimi, nəzərə çatdırım ki, Maştağa kəndində bizim nəslə, eləcə də Əmir Əhmədin böyük qardaşı Əmir Aslandan törənənlərə Kəlbi övladları demişlər. Mən atamdan, atam atasından, babam atasından eşidib ki, ulu cəddimiz Kəlbi-Əli naməlum bir şəxsi öldürərək, Maştağa kəndinə gəlmiş və adını dəyişdirərək, orada yaşamışdır.

Biz bu günə qədər Kəlbi-Əlinin əsil adından belə xəbərsizik. Bu onu göstərir ki, Kəlbi-Əli adi bir adamı öldürməyib. Qeyd etmək istərdim ki, Maştağa kəndində Kəlbi-Əlinin böyük nəvəsi Əmir Aslana məxsus ovdan və bağ sahələri olmuşdur. Həmçinin, Əmir Aslanın kiçik qardaşı Əmir Əhmədin də, qeyd etdiyim kimi, böyük torpaq sahələri var idi.

Araşdırdığım sənədlərdə 1806-cı ildə Bakı xanı Hüseynqulu xanın Bakının açarlarını general, knyaz P. D. Sisianova təslim etmədən onu qətlə yetirən Əmir Həmzə Hacı Abid bəy elə ulu cəddim Kəlbi-Əlidir. O, generalP. D. Sisianovu qətlə yetirdikdən sonra Maştağa kəndinə gələrək, adını dəyişdirib və orada Kəlbi-Əli adı ilə yaşayıb.

Bəzi tarixi mənbələrdə general P.D.Sisianovun qətlində Hüseyinqulu xanın qardaşı oğlu İbrahim bəyin təqsirləndirildiyi yazılır. Lakin qeyd etmək istərdim ki, "Tiflis 1869-cu il Qafqaz Arxeoqrafiya Komisiyasının Aktları"nın III cildindəki 1. materiala əsasən, general P. D. Sisianovun ölümündə əsas Əmir Həmzə Hacı Abid bəy təqsirləndirilir. Buradan sual yaranır: Niyə görə general Bulqakov qraf Qudoviçə general P. D. Sisianovun ölümündə məhz Əmir Həmzə Hacı Abid bəyi təqdim edir? Məhz general P. D.Sisianova silah açanlardan digər 2 nəfərin adlarını niyə qeyd etmir?

Bütün bu nəticələrimi hörmətli tarixçilərimiz Şahin Fazil, Kərəm Məmmədov və Mərziyə İsgəndərova da mümkünlüyünü təsdiq etdilər. Bu tarixin açılmamasına səbəb isə rus generalını qətlə yetirən şəxsin adının aşkara çıxarılma məsələsi istər Çar dövründə, istərsə də Sovet dövründə nəslin təqibə məruz qalmaması üçün gizlədilmişdir.

Bir məqamıda qeyd etmək istərdim ki, babam Əliağa və onun qardaşları haqsızlığa qarşı hər zaman zəifləri müdafiə ediblər. Bakı qoçuları onları da qoçu çağırmağı təklif etsələrdə, onlar bu adı özlərinə yaraşdırmayıblar, sadəcə onları Əyriçalmalı qardaşlar adlandırırdılar. Bu da onların hansı nəsilə mənsub olduğlarını açıq-aydın göstərir.

Mən bu məqaləmdə bir çox məqamlara toxunmaq istədim. Lakin, əsas məqamı da qeyd edim ki, Bakının şərəfini yad əllərdən qoruyan, qəhrəmancasına Rus çarının generalı knyaz Sisianovu öldürən Əmir Həmzə Hacı Abid bəyin nəsli bu gün yaşayır. Bakının namusunu, şərəfini qoruyan təkcə o olmadı. Ondan törənənlər də Maştağa kəndini müdafiə etmək üçün 1918-ci ildə ermənilərə qarşı vuruşublar.

Vətənin torpağını, namusunu qoruyan igidlər arasında Əyriçalmalı qardaşlar da var. Bu gün qürurla deyə bilərik ki, Əyriçalmalı nəsli knyaz Sisianovu öldürən Əmir Həmzə Hacı Abid bəyin soyunun davamçısıdır.

Əsrlərdə gizlənən nəsil tariximi az da olsa müəyyənləşdirdikdən sonra mənə vacib olan məsələdəki tarixi gerçəkliyi bir daha aydınlaşdırmağı özümə borc bildim. Çünki, şəcərəmizlə bağlı Əyriçalmalı nəslinə mənsub olduğumdan və ulu babamın Kəlbi Əli adlı möhtərəm bir şəxs olmasını elmi faktlarla ətraflı araşdırdımsa da, sonradan yeni məlumatlarla zənginləşmiş oldum.

Ulu cəddim, 7-ci arxam Kəlbi Əlinin həyatını qətiyyətlə araşdırmağa cəhd etdim. Bu günə kimi hansı soya, hansı şəcərəyə aid olduğumu bilsəm də, kökümün kimə mənsub olduğundan xəbərsiz idim. Amma dəqiqlik və gerçəklik, yaxud həqiqət həyat pirinsipim olduğu üçün bu məsələnin həlli məni rahat qoymurdu.

Azərbaycan tarixində, ən əsası Qafqaz tarixində iki əsrdən çoxdur ki, rus generalı, knyaz D. P. Sisianovun Bakıda Qoşa Qala qapısının qarşısında qətlə yetirilmə günü bu gün də müzakirə obyekti olmaqdadır. "Tiflis 1869 – cu il Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları" nın III cildinə 1. əsasən aşkara çıxardığım məsələ, knyaz Sisianovun ölümündə Əmir Həmzə Hacı Abid bəyin təqsirləndirilməsidir. Bu qətldə Əmir Həmzə Hacı Abid bəylə yanaşı digər iki nəfərin də knyaz P. D. Sisianova atəş açdığı qeyd edilir. Lakin bir çox tarixi kitablara nəzər yetirsək, knyaz P. D. Sisianovun ölümündə məhz İbrahim bəyin rol oynaması göstərilir. İbrahim bəy! Bəs bu İbrahim bəy kimdir? "Azərbaycan tarixi" dərsliyində Sisianovu öldürənin Hüseynqulu xanın əmisi oğlu (Azərbaycan tarixi; Bakı 2002, səh 192), lakin Sovet dövrü kitablarında isə qardaşı oğlu kimi təqdim olunan şəxs İbrahim bəy göstərilir.

Mənbəyə əsaslanaraq tərəfimizdən aşkar olunmuşdur ki, Hüseynqulu xanın İbrahim bəy adında nə əmisi oğlu, nə də qardaşı oğlu olmuşdır. Bakıxanovlar şəcərəsinə görə İbrahim bəy yox, Hüseynqulu xanın qardaşı Mehdiqulu ağanın qızı Cahanbanu xanımın həyat yoldaşının adı Mirzə İbrahimdir. Məlumdur ki, Mirzə İbrahim bəy əslən Bakılıdır və həkim olmuşdur. Digər məlumatda isə Cahanbanu xanımla Mirzə İbrahim bəyin Ərdəbildə yaşadıqları qeyd olunub. Beləliklə, demək istərdim ki, Bakıxanovların şəcərəsində Hüseynqulu xanın qan qohumlarından İbrahim bəy adlı şəxs yoxdur!

Bəzi mənbələrdə Sisianovu Hüseynqulu xanın qardaşı oğlu Aslan bəyin öldürməsi göstərilir. Bu məsələyə aydınlıq gətirmək istərdim. Hüseynqulu xanın qardaşı Mehdiqulu ağanın Həsən ağa və Cəfərqulu ağa adında iki oğlu var idi ki, şəcərəyə əsasən onlar, nə Həsən ağanın, nə də Cəfərqulu ağanın övladları olmamışdır. Ümumiyyətlə,

Bakıxanovlar şəcərəsində Aslan bəy adın da şəxsin adına rast gəlinmir. Bütün bunlara əsaslanaraq belə bir fikir söyləmək olar ki, öldürülən və bu gün də müzakirə obyekti ola biləcək, knyaz P. D. Sisianovun qətli, təəsüf ki, hələ də müəmma olaraq qalmaqdadır. Bir çox tarixçilər söhbət zamanı bu hadisənin doğru və qərəzsiz sübuta yetirildiyini bildirirlər. Lakin mən həqiqəti və gerçəkliyi düzgün tapmaq ümidindəyəm. Əlbəttə, mən bu məsələnin təfərrüatlı ilə ciddi məşğul oldum və əldə etdiyim tarixi faktların düzgünlüyünə inandım. Çünki, artıq bir neçə təkzibolunmaz həqiqəti müəyyənləşdirməyə, güman edirəm ki, nail olmuşam. Bunlardan birincisi, məlumata görə, P. D. Sisianovu öldürən şəxs Hüseynqulu xanın bibisi oğlu Şəkər ağa olmuşdur. Qeyd etmək istəyirəm ki, Maştağada "Xan bağı" adlanan ərazi var. Bu ərazi o vaxt Hüseynqulu xan tərəfindən əmisi oğlu və Bakı xanı II Mirzə Məhəmməd, taxtdan uzaqlaşdırılan vaxt Maştağa mülklərindən birində məskunlaşmaqdan ötrü ona verilmiş torpaq sahəsi idi. Sonradan II Mirzə Məhəmməd Hüseynqulu xana yenidən müqavimət göstərib, məğlubiyyətə uğramış və ömürünün sonunadək Qubada yaşamışdır. Hal-hazırda həmin ərazi "Şəkər qumu" da adlandırılır. Həmin ərazinin "Şəkər qumu" adlandırılması Sisianovun ölümü ilə müstəqim şəkildə əlaqədardır.

Şəkər ağanın kimliyi barədə dəqiq məlumatı ana tərəfi Şəkərzadələr nəslindən olan Maştağadakı 209 saylı məktəbin müəllimi Məmmədov Əlihəsən Bəyəhməd oğlundan aldım. Onun məlumatına görə, Şəkər ağanın babası Dərbənd hakimi Məhəmmədhüseyn xan 1759-cu ildə Qubalı Fətəli xanla döyüşdə məğlub olmuş, gözləri çıxardılaraq 5 yaşlı oğlu Əli ilə birlikdə əvvəlcə Qubaya, sonra Bakıya sürgün olunmuşdur. Bakı xanı Məlik Məhəmməd xanın hakimiyyəti dövründə Əli bəy xanın bacısı ilə evlənmiş və onun 6 oğlu olmuşdur ki, onların biri Şəkər ağadır. Knyaz P. D. Sisianovun Bakıya yaxınlaşdığından xəbər tutan Şəkər ağa deyir: "-Xanın mindiyi at və geyindiyi əba məndə olsaydı Sisianovu öldürərdim". Hüseynqulu xan atını və əbasını bibisi oğluna verib onu knyazla görüşə göndərir və knyaz P. D. Sisianov həmin görüşdə öldürülür.

Şəkər ağanın oğlu Məhəmmədhüseyn bəyin nəvəsi Qızxanım Şəkərzadənin oğlu Əlihəsən müəllimin dediyinə görə knyaz P. D. Sisianovu üç yox, iki adam vurmuşdur. Bakının işğalı zamanı Şəkər ağanın atası və 5 qardaşı Ərdəbil şəhərinə köçmüşlər, amma anası Bakını tərk etmədiyi üçün Şəkər ağa ilə birlikdə Maştağada qalırlar. Şəkər ağanın digər 5 qardaşının adları məlum deyil. Yuxarıda adı çəkilən Əli bəy və oğulları Ərdəbil şəhərinin Barı kəndində məskunlaşmışlar və bu gün həmin kəndin əksər sakinləri "Bakılılar" adlandırılır. Bütün bu faktlar görkəmli tarixçi Sara Aşurbəylinin "Bakı şəhərinin tarixi: Orta əsrlər dövrü" 5. əsərində qeyd olunmuşdur. Hüseynqulu xan isə Şəkər ağaya Maştağada olan Xan bağını ona ənam olaraq bağışladı. Bu gün Şəkər ağanın nəsli "Şəkərzadələr" soyadını daşıyır.

Əlihəsən müəllimin 97 il ömür sürmüş qaynatası Məhəmmədsaleh Qurbanqulu oğlu Şəkər ağanı belə təsvir edirdi: ***" – Şəkər ağa 100 ildən çox yaşamış, kürən və qıvraq bir kişi idi".***

Şəkər ağanın tarixi, yaxud kimliyi haqqında məlumatın təhrif olunması mümkün deyildir. Çünki adətən bir insanın şərəfli tarixi, ənənəyə görə, onun övladlarına və ondan törənənlərə açıq-aşkar və istər-istəməz qüsursuz çatdırılır.

***"Tiflis 1869 – cı il Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları" nın*** III cildindəki 1. qeyd olunur ki, knyaz P. D. Sisianovu və podpolkovnik Eristovu öldürən şəxsin adı Bakılı Qasım bəydir. Bəs Qasım bəy kimdir? Hacı Qasım bəy Mansurxan bəy oğlu Bakının Səlimxanovlar nəslinə mənsub Hüseynqulu xanın qızı Çimnaz xanımın həyat yoldaşı olmuşdur. Qasım bəy haqqında məlumatı Səlimxanovlar nəslinin çox yaxın nümayəndəsi Fizika və riyaziyyat elmləri doktoru, professor Tələt Mehdiyevdən aldım. Sisianovu öldürən şəksin adının sənəddə yanlış qeyd olunması mümkün deyil. Çünki, məlumatı general Bulqakova çatdıran Hüseynqulu xanın kürəkəni Qasım bəy şəxsən özü olmuşdur. Tarixi məxəzlərdə qeyd olunur ki, rus ordusu ilə Bakıya yaxınlaşan general Bulqakovu Qasım bəyin özü qarşılayır. Sənədə nəzər yetirək: ***13 noyabr 1806-cı il Beşbarmaq ərazisindən rus generalı Bulqakovadan qraf Qudoviçə hesabat: "-Bakılı Qasım bəydən aldığım məlumata görə general Sisianovun və podpolkovnik Eristovun qətlində təqsirləndirilən Bakılı Əmir Həmzə Hacı Abid bəy və onunla birgə qətldə iştirak edən daha başqa 2 nəfər Bakıətrafı ərazilərdə gizlənmişlər. Mən Əmir Həmzə Hacı Abid bəyin şəhərə hər hansı bir yolla çağırılıb onunla birgə qətldə iştirak edən daha 2 nəfərin yerini öyrənərək onların tutulmağı barədə göstəriş verdim."***

Sənədə əsasən məlumdur ki, Bakının ruslar tərəfindən işğalı və Çar Rusiyasının hakimiyyəti altına rəsmən düşməsi knyaz Sisianovun ölümündən 8 ay sonra baş vermişdir. 1806-cı il iyunun 22-də Dərbənd işğal edildikdən sonra rus qoşunları Bakıya doğru hərəkət edərək, sentyabrın 5-də şəhərə yaxınlaşırlar, general Bulqakovu Qasım bəy Beşbarmaq ərazisində qarşılayır və onların görüşü baş tutur, Bulqakov Qasım bəylə əhaliyə müraciət göndərərək, onlara toxunulmazlıq vəd edir. Məlumdur ki, Bulqakovun Bakıya yaxınlaşması zamanı müqavimətin mənasız olduğunu görən Hüseyqulu xan, qeyd etdiyim kimi, Qubaya getmiş, oradan da Ərdəbilə köçmüşdür. Qasım bəyin bu şəraitdə Rus knyazına sui-qəsd törədən şəxsi gizli saxlamasına artıq heç bir səbəbi yox idi.

Bakı Dövlət Universitetinin 2009-cu ildə nəşr etdiyi "Azərbaycan tarixi" kitabında (səh 594) İbrahim bəy Hüseynqulu xanın xalası oğlu kimi qeyd olunmuşdur. Ümumiyyətlə, deyə bilərəm ki, rus generalı, knyaz P. D. Sisianovun ölüm tarixi, tarix kitablarında dəqiq verilməyib.

Bu müzakirələr sonucunda biz mühüm bir dəqiqliyi üzə çıxartdıq. ***Böyük tarixçi Abbasqulu ağa Bakıxanov "Gülüstani-İrəm" əsərinin V fəslində "Nadir şahın vəfatından, Gülüstan adlı yerdə və İran dövlətləri arasında bağlanan sülh müahidəsinə qədər" 6. hissəsində yazır:*** "Sərdar (D.P.Sisianov) hicri 1220-ci (=1806) ildə şubatın (fevralın) 2-də qalanın yanında Hüseynqulu xan ilə təslim olmaq haqqında danışıq apardı. Bu zaman sülh və müsalimət qanunu xilafına olaraq iranlıların təhriki və ya Hüseynqulu xanın tapşırıqı ilə Sisianov onun bibisi oğlu İbrahim bəy ibni Əli bəy ibni Məhəmmədhüseyn xan ibni İmamqulu xan Dərbəndinin əlində öldürüldü. Başı qatilin atası ilə şahın hüzuruna göndərildi. Ruslar gəmilərə minib Sarı adasına getdilər".

Digər tarixçi Sara Aşurbəyli "Bakı şəhərinin tarixi: Orta əsirlər dövrü" əsərində həmin hadisəni olduğu kimi "Gülüstani-İrəm" əsərinə istinadən vermişdir. S. Aşurbəyli "Bakı şəhərinin tarixi: Orta əsrlər dövrü" 5. əsərində bir başqa məlumatı da qeyd edir: "Şəhər camaatının dediyinə görə Sisianovu vuranların biri də Əhməd bəy olub. Əhməd bəy general Bulqakov Bakıya gələndə Hüseynqulu xanla Qubaya getmiş, oradan da Ərdəbilə köçmüşdür."

Bu tarixi araşdırmaların nəticəsi olaraq belə qənaətə gəldik: Rus generalı knyaz Sisisanov fevralın 2-də qala yaxınlığında Hüseynqulu xanla görüşür. Məlumdur ki, görüşdə Sisianov Hüseynqulu xana Bakının təslim olması barədə özünün hazırladığı müqavilə şərtlərini təqdim edir və Hüseynqulu xan bu şərtlərlə razılaşır. Rus hərbi tarixçisi A. Potto beşcildlik "Qafqaz müharibəsi" əsərində yazır ki, "görüş zamanı Hüseynqulu xanın yanında onu müşayiət edən Qasım bəy və Kərim bəy də olub". Bu məlumatı A. Pottoya Bakı sakini 83 yaşlı Hacı Qurban vermişdir. O, Qasım bəyin silahlı nökərlərindən biri olmuş və Hacı Qurban da bu görüşdə iştirak etmişdir.

Lakin Sisianovun ölümü 1806-cı ilin fevralın 8-də baş tutur. "Tiflis 1869 – cı il Qafqaz Arxeoqrafiya Komisiyasının Aktları" nın III cildində 1. qeyd olunduğu kimi Qasım bəyin general Bulqakova verdiyi məlumata görə də, knyaz P. D. Sisianovu və podpolkovnik Eristovu öldürənlər Əmir Həmzə Hacı Abid bəy və daha digər iki nəfər olmuşdur. Deməli, fevralın 8-də Sisianovun görüşünə Əmir Həmzə Hacı Abid bəy, Əhməd bəy və xan qiyafəsində at belində Hüseynqulu xanın bibisi oğlu İbrahim bəy gedirlər. Bakının açarları Sisianova təqdim olunmadan Əmir Həmzə Hacı Abid bəy Sisianova atəş açmışdır. Əhməd bəyin və İbrahim bəyin də atəş açması Rus ordusunu qorxuya salmış və geri çəkilməyə məruz qoymuşdur. Knyaz P. D. Sisianovun cansız bədənindən başını Əmir Həmzə Hacı Abid bəy ayırmış və xanın göstərişi ilə P. D. Sisianovun başı İbrahim bəyin atası Əli bəy ilə Fətəli şah Qacarın hüzuruna göndərilmişdir.

Deməli, İbrahim bəy Bakını tərk etmədiyi üçün Maştağada qalmış və adını dəyişdirərək Şəkər ağa Cəfər oğlu adı ilə yaşamışdır.3. Əmir Həmzə Hacı Abid bəy Maştağaya gəlib, adını dəyişdirib Kəlbi-Əli olmuş,4. Əhməd bəy isə Hüseynqulu xanla birlikdə əvvəl Qubaya ordan da Ərdəbilə köçmüşdür.5.

Bəzi tarixçilər knyaz P. D. Sisianovun Hüseynqulu xanın əmisi oğlu İbrahim bəy tərəfindən öldürdüyünü və başını kəsərək İran şahına göndərilmə məsələsinin təkzib oluna bilməyəcəyini demişlər. Əgər mən bunu təkzib etsəm bir çox tənqidçilərlə qarşılaşacağım məlumdur. Amma mən tarixi həqiqəti, yaxud dəqiqliyi üzə çıxarmaq qərarındayam. Əgər İbrahim bəy knyaz P. D. Sisianovun ölümündə əsas iştirak edən şəxs olubsa, bəs nəyə görə tarixi sənədlərdə məhz qətlin səbəbkarı kimi başda Əmir Həmzə Hacı Abid bəy təqsirləndirilir. İbrahim bəyin adı isə çəkilmir. Orada həmçinin iki silahdaşın olduğu göstərilir.

Ümumiyyətlə, heç bir tarixi sənədlərdə İbrahim bəyin adı yoxdur. Yalnız böyük tarixçilərimiz A. A. Bakıxanov və S. Aşurbəylinin əsərlərində İbrahim bəyin adı vurğulanır. Hətta İbrahim bəyin sonrakı taleyi haqqında da məlumat yoxdur.

Qeyd edim ki, Əmir Həmzə Hacı Abid bəyin adı həmçinin siyasi və ictimai xadim, publisist Məmməd Əmin Rəsulzadənin ***"Bakı və Azərbaycan tarixinə dair əsərlər 1918-1919"*** 7. əsərində çəkilib.

Nə üçün? Ola bilməz ki, böyük tarixçi A. A. Bakıxanov Tiflisdə çalışdığı zaman ***"13 noyabr 1806-cı il Beşbarmaq ərazisindən rus generalı Bulqakovadan qraf Qudoviçə hesabat!"1. adlanan sənədi ilə tanış olmasın.*** Bu sənədin mövcudluğunu bilməsin. Burada açıq şəkildə görünür ki, A. A. Bakıxanov knyaz P. D. Sisianovun qatilinin İbrahim bəyin olmasını, naməlum səbəblərə əsasən qeyd edib. S. Aşurbəyli də ona istinad etmişdir.

Əgər biz tarixi sənədlərə istinad edərək tariximizi araşdırırıqsa, dəməli bu dövrə gəlib çatan sənədlər heç də əsassız deyildir. Tarixçilərimizin bu kimi məsələlərə diqqətlə yanaşmaları zəruridir.

**Ədəbiyyat:**

1. AMEA Tarix Muzeyi, "Tiflis – 1869 Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları" III cild; səh 349; sənəd 645
2. ARDTAİ f 10; s 1; sax v. 131; səh 213 – 1863-ci il
3. ARDTAİ f 10; s 1; sax v. 94; səh 469 – 1849-ci il
4. ARDTAİ f 24; s 1; sax v. 369; səh 261 – 1832-ci il
5. S. Aşurbəyli. "Bakı şəhərinin tarixi: Orta əsrlər dövrü" (Bakı 1992; səh 301; 302; 303)
6. A. A. Bakıxanov. "Gülüstani-İrəm" (Bakı 2001; səh 221-222)
7. M. Ə. Rəsulzadə. "Bakı və Azərbaycan tarixinə dair əsərlər 1918-1919" (Bakı 2013; səh 47)
8. В.А.Потто. "Кавказская война" (ч I; об 356-357)
9. ЦГИАГ; Груз; Респ; ф 2; он 1; д 12150; ч II; об 82-83

**A story hidden in the ages.**
**Who was Amir Hamza Haji Abid Bey?**

**Summary**

The author of the article rejects the fact that Ibragim bek mentioned in most official documents and historical chronicles was involved to P.Tsitsianov`s murder. The author puts forward proposals that the murderer was Kalbli-Ali (Amir Hamza Haji Abid bek) – the author`s ancestor in the 7$^{th}$ generation.

The given article was presented at the almanac of the Institute of History named after A.A.Bakikhanov of ANAS.

**История, скрытая в веках.**
**Кем был Амир Хамза Гаджи Абид бей?**
**Резюме**

Автор статьи Хаяла Айричалмалы опровергает тот факт, что к убийству П.Д.Цицианова был причастен упоминаемый во многих официальных документах и исторических хрониках Ибрагим бек. Автор выдвигает предположение о том, что убийцей был Кяльбли-Али (Амир Гамза Гаджи Абид бек) - её предок в седьмом поколении.

Данная статья была представлена в альманахе институт истории имя А.А. Бакиханова НАНА для дальнейшего обсуждения.

**Rəyçi: prof. Şahin Fazil**